INNAB
PEŞƏKAR İNKİŞAF PLATFORMASI

# SƏVİYYƏLƏR ÜZRƏ İNGİLİS DİLİ TƏDRİS PLANI

- ***Başlanğıc səviyyə: A1, A2***
  - ***A1 – söz bazası: 500, kursun müddəti: 2 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Ünsiyyət qurmaq və məlumat mübadiləsi üçün ilkin bacarıqlar: özünü və başqalarını təqdim etmək, sadə, sürətsiz, aydın danışığı anlamaq, məsələn, menyu haqqında sadə suallar vermək.
    - **Mövzular:** salamlaşma, tanışlıq, saat, vərdişlər, hobbi, asudə vaxt, qida və içkilər, ölkələr və xalqlar, doğma şəhər, ailə, bayramlar, alış-veriş, iş
  - ***A2 – söz bazası: 1000, kursun müddəti: 2 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Sadə məlumatlarla işləmək və gündəlik mövzularda özünüifadə bacarığı, məsələn, iş, ailə, alış-veriş kimi sadə mövzularda söhbətə qoşulmaq
    - **Mövzular:** səyahət, otaq və əşyalar, insan xarakteri, emosiyalar, təhsil
- ***Orta səviyyə: B1, B2***
  - ***B1 – söz bazası: 2000, kursun müddəti: 3 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Tanış vəziyyətlərdə məhdud çərçivədə anlama və fikrini ifadə etmə: hadisələri təsvir etmə bacarığı, məsələn, prosedur qaydaları sadə olduğu təqdirdə bank hesabı açmaq üçün müraciət etmək
    - **Mövzular:** ədəbiyyat və kitablar, filmlər, media, xəbərlər, həyat tərzi, təhsil
  - ***B2 – söz bazası: 4000, kursun müddəti: 3 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Öz ixtisası da daxil olmaqla konkret və mücərrəd mövzularda mətnin əsas ideyasını anlamaq, dil daşıyıcıları ilə çətinlik çəkmədən ünsiyyət qurmaq və aktual məsələlərdə fikrini aydın ifadə etmək, məsələn, ziyarətçiləri ərazi ilə tanış etmək və haqqında ətraflı məlumat vermək
    - **Mövzular:** ədəbiyyat və kitablar, filmlər, media, xəbərlər, həyat tərzi, təhsil
- ***Yüksək səviyyə: C1, C2***
  - ***C1 - söz bazası: 8000, kursun müddəti: 3 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Hətta tanış olmayan vəziyyətlərdə düzgün anlama və danışıq bacarığı: mürəkkəb və uzun mətnləri, üstüörtülü məqamları anlamaq, sosial, akademik və peşəkar məqsədlərlə dildən istifadə etmək, axıcı nitq
    - **Mövzular:** elmi inkişaf, texniki və hüquqi söz bazası
  - ***C2 - söz bazası: 16000, kursun müddəti: 3 ay***
    - **Əldə olunan bilik və bacarıqlar:** Oxuduğu və dinlədiyi hər şeyi asanlıqla başa düşmək, dil daşıyıcısı qədər sürətlə oxumaq, akademik materiallarla işləmək və orta səviyyəli dil daşıyıcısından daha yüksək dil bilik və bacarıqlarına malik olmaq

*Hər bir səviyyə üzrə söz bazası qeyd olunan saydan 20% artıq və ya əksik ola bilər.

| Söz bazası | Yaratdığı imkanlar |
|---|---|
| 1000 | Mövzu ixtisaslaşmış olmadığı təqdirdə gündəlik danışıqların 80%-i anlaşılır. Lakin əsas olan 20% anlaşılmadığı üçün natamamlıq hiss olunur, bəzən isə dinlənilənlər yalnız söz yığını kimi qəbul edilir. |
| 3000 | Adi mətnlərin 95%-i, yəni ümumi məna anlaşılır. Bəzən bu, təxminlərə əsaslanır. |
| 5000 | Adi mətnlərin 98%-i böyük problemlər olmadan anlaşılır, lakin fikirlərin tam dəqiqliklə ifadəsi və ixtisaslaşmış sözlərin anlaşılması üçün kifayət deyil. |
| 10000 | Əksər mətnlərin 99%-i anlaşılır. Aksent düzgün olarsa, bu söz bazası dil daşıyıcısı kimi danışmaq imkanı yaradır. |